Aqrar Subsidiya Şurası 2019-cu il 29 avqust tarixli iclasında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nın 2.4-cü bəndinə müvafiq olaraq 2020-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul etmişdir. Həmin iclasın protokolundan çıxarış təqdim edilir.

Aqrar Subsidiya Şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nın 2.4-cü bəndinə müvafiq olaraq

**QƏRARA ALIR:**

1. Baza məbləği 200 manat olmaqla 2020-ci ildə əkin əmsalları və əkin subsidiyasının məbləği kənd təsərrüfatı bitkiləri üzrə aşağıdakı kimi müəyyən edilsin:

| **Bitki növləri** | **Əkin əmsalı** | **Əkin subsidiyası (manat/ha)** |
|---|---|---|
| Buğda | 1,0 | 200 |
| Çəltik | 1,4 | 280 |
| Soya | 1,3 | 260 |
| Sorqo | 0,5 | 100 |
| Digər dənli və dənli paxlalılar (arpa, covdar, darı, vələmir, noxud, mərci və s.) | 0,8 | 160 |
| Qarabaşaq | 0,9 | 180 |
| Yer fındığı | 0,9 | 180 |
| Zəfəran | 2,0 | 400 |
| Günəbaxan | 1,0 | 200 |
| Tütün | 1,4 | 280 |
| Pambıq | 1,1 | 220 |
| Şəkər çuğunduru | 1,4 | 280 |
| Kartof | 1,2 | 240 |
| Tərəvəz | 1,2 | 240 |
| Bostan bitkiləri | 1,1 | 220 |
| Digər bitkilər | 0,5 | 100 |
| Üzüm: | | |
| bağın salındığı ildən ilk 4 il ərzində | 3,0 | 600 |
| 4 ildən sonrakı illər üzrə | 1,2 | 240 |
| Çay: | | |
| plantasiyanın salındığı ildən ilk 7 il ərzində | 3,5 | 700 |
| 7-ci ildən sonrakı illər üzrə | 1,2 | 240 |
| İntensiv meyvə bağları (qərzəklilər istisna olmaqla) | | |
| bağın salındığı ildən ilk 4 il ərzində | 4,0 | 800 |
| 4 ildən sonrakı illər üzrə | 1,2 | 240 |
| İntensiv qərzəkli meyvə bağları | | |
| bağın salındığı ildən ilk 4 il ərzində | 2,0 | 400 |
| 4 ildən sonrakı illər üzrə | 1,2 | 240 |
| Digər meyvə bağları | 1,2 | 240 |
| Giləmeyvəlilər | 1,0 | 200 |

2. İntensiv meyvə bağlarına damcı suvarma sistemi ilə təmin olunmuş aşağıdakı bağlar aid edilsin:

- alma, armud, gilas (albalı), gavalı, şaftalı (nektarin), ərik, alça və badam bitkiləri üzrə 1 hektara minimum 650 ədəd vegetativ calaqaltı tingin əkildiyi bağlar;
- xurma və nar bitkiləri üzrə 1 hektara minumum 450 ədəd tingin əkildiyi bağlar;
- limon, portağal, naringi və feyxoa bitkiləri üzrə 1 hektara minimum 650 ədəd tingin əkildiyi bağlar;
- fındıq bitkisi üzrə 1 hektara minimum 330 ədəd ocağın olduğu bağlar;
- əzgil, zoğal, iydə, əncir, qoz, zeytun və digər bitkilər üzrə 1 hektara minimum 330 ədəd tingin əkildiyi bağlar.

3. Digər meyvə bağlarına görə əkin subsidiyasının verilməsi üçün 1 hektara əkilmiş tinglərin minimum sayının 90 ədədə bərabər olması şərti müəyyən edilsin.

4. Bu qərarın birinci bəndində üzüm və intensiv meyvə bağları üzrə onların salındığı ildən ilk 4 il ərzində və çay plantasiyaları üzrə onların salındığı ildən ilk 7 il ərzində tətbiq edilən əkin əmsalları 2019-cu ildən başlayaraq salınmış bağlara şamil edilsin, 2019-cu ildən əvvəl salınmış üzüm, çay və intensiv meyvə bağları üzrə əkin əmsalları 1,2-yə bərabər qəbul edilsin.

5. Bu qərarın birinci bəndində çəltik üzrə əkin əmsalı Ağdaş, Ağsu, Astara, Biləsuvar, Göyçay, Lənkəran, Masallı, Salyan, Samux, Ucar, Yevlax, Şəki və Zərdab rayonlarına şamil edilsin, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul edilsin.

6. Bu qərarın birinci bəndində pambıq üzrə əkin əmsalı Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Füzuli, Goranboy, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux, Tərtər, Ucar, Yevlax və Zərdab rayonlarına şamil edilsin, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul edilsin.

7. Bu qərarın birinci bəndində tütün üzrə əkin əmsalı Ağstafa, Balakən, Gədəbəy, Goranboy, İsmayıllı, Lerik, Masallı, Oğuz, Qax, Qazax, Qəbələ, Şəki, Tovuz, Yardımlı və Zaqatala rayonlarına şamil edilsin, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul edilsin.

8. Bu qərarın birinci bəndində fındıq üzrə əkin əmsalı Ağstafa, Balakən, Zaqatala, Xaçmaz, Qax, Qəbələ, Quba, Şəki, Oğuz, Qusar, Qazax, Şabran və İsmayıllı rayonlarına şamil edilsin, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul edilsin.

9. Bu qərarın birinci bəndində çay üzrə əkin əmsalı Astara, Lənkəran, Masallı və Zaqatala rayonlarına şamil edilsin, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul edilsin.

10. Baza məbləği 200 manat olmaqla 2020-ci ildə məhsul əmsalları və məhsul subsidiyasının məbləği xam pambıq, tütün və şəkər çuğunduru üzrə aşağıdakı kimi müəyyən edilsin.

| Bitki növləri | Məhsul əmsalı | Subsidiyanın məbləği (manat/ton) |
|---|---|---|
| Pambıq | 0,5 | 100 |
| Tütün: quru | 0,25 | 50 |
| yaş | 0,025 | 5 |
| Şəkər çuğunduru | 0,02 | 4 |

**11.** Baza məbləği 200 manat olmaqla 2020-ci ildə toxum əmsalları və toxum subsidiyasının məbləği kənd təsərrüfatı bitkiləri üzrə aşağıdakı kimi müəyyən edilsin:

| **Bitki növləri** | **Ölçü vahidi** | **Toxum əmsalı** | **Ödənilən subsidiyanın məbləği (manatla)** |
|---|---|---|---|
| **Toxumlar üzrə** | | | |
| Buğda | 1 kq | 0.0004 | 0.08 |
| Arpa | 1 kq | 0.0004 | 0.08 |
| Çəltik | 1 kq | 0.0005 | 0.1 |
| Qarğıdalı | 1 kq | 0.0015 | 0.3 |
| Noxud | 1 kq | 0.0015 | 0.3 |
| Pomidor | 1 kq | 0.09 | 18 |
| Xiyar | 1 kq | 0.06 | 12 |
| Soğan | 1 kq | 0.04 | 8 |
| Kələm | 1 kq | 0.05 | 10 |
| Kartof | 1 kq | 0.0005 | 0.1 |
| Pambıq (lifli) | 1 kq | 0.0005 | 0.1 |
| Pambıq (lifsiz) | 1 kq | 0.002 | 0.4 |
| Yonca | 1 kq | 0.006 | 1.2 |
| **Tinglər üzrə** | | | |
| Alma | 1 ədəd | 0.0025 | 0.5 |
| Armud | 1 ədəd | 0.0025 | 0.5 |
| Gilas | 1 ədəd | 0.0025 | 0.5 |
| Üzüm | 1 ədəd | 0.001 | 0.2 |
| Çay | 1 ədəd | 0.0003 | 0.06 |

**12.** 2020-ci ildə toxum kvotası bitkilər üzrə toxum subsidiyasına təqdim edilmiş toxum və tinglərin miqdarı aşağıda verilmiş miqdardan az olduqda, təqdim edilmiş toxum və tingin miqdarına, çox olduqda isə aşağıda verilmiş miqdara bərabər müəyyən edilsin:

**Toxumlar üzrə:**

| **Bitki növləri** | **Toxumların reproduksiyası** | **Toxumun miqdarı (ton)** |
|---|---|---|
| Buğda | 1-ci | 9000 |
| | 2-ci | 65000 |
| Arpa | 1-ci | 2200 |
| | 2-ci | 20000 |
| Çəltik | 1-ci | 30 |
| | 2-ci | - |
| Qarğıdalı | 1-ci | 200 |
| | 2-ci | - |
| Noxud | 1-ci | 40 |
| | 2-ci | 20 |
| Pambıq | 1-ci | 500 |
| | 2-ci | 600 |
| Kartof | 1-ci | 1100 |
| | 2-ci | 2500 |
| Pomidor | 1-ci | 0.3 |
| | 2-ci | - |
| Xiyar | 1-ci | 0.3 |
| | 2-ci | - |
| Soğan | 1-ci | 1 |
| | 2-ci | 0.6 |
| Kələm | 1-ci | 0.7 |
| | 2-ci | - |
| Yonca | 1-ci | 95 |
| | 2-ci | 55 |

**Tinglər üzrə:**

| Bitki növləri | Tinglərin miqdarı (min ədəd) |
|---|---|
| Alma | 70 |
| Armud | 50 |
| Gilas | 50 |
| Üzüm | 25 |
| Çay | 1500 |

**13.** 2020-ci ildə toxum subsidiyasının hesablanması üçün istifadə ediləcək əkin ehtiyacları (fermerlərə istifadələrində olan torpaq sahələrinin hər hektarına görə satılan 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin miqdarının yuxarı həddi) aşağıdakı kimi müəyyən edilsin:

| Bitki növləri | Əkin ehtiyacı |
|---|---|
| **Toxumlar (kq/ha)** | |
| Buğda | 220 |
| Arpa | 170 |
| Çəltik | 150 |
| Qarğıdalı | 22 |
| Noxud | 100 |
| Pomidor | 0.6 |
| Xiyar | 6 |
| Soğan | 12 |
| Kələm | 0,6 |
| Kartof | 3000 |
| Pambıq: lifli | 60 |
| lifsiz | 22 |
| Yonca | 15 |
| **Tinglər (ədəd/ha)** | |
| Alma və armud | |
| intensiv bağlar üzrə | 2500 |
| digər bağlar üzrə | 350 |
| Gilas | |
| intensiv bağlar üzrə | 700 |
| digər bağlar üzrə | 350 |
| Çay | 24000 |
| Üzüm | 2500 |